**Şəfiqə Səfər qızı MƏMMƏDOVA**
Sumqayıt Dövlət Universitetinin Dünya
iqtisadiyyatı və marketinq kafedrasının dosenti
ORCID: 0000-0003-0635-577X

# MİLLİ SƏRVƏTİN YARADILMASINDA İNSAN KAPİTALININ ROLUNUN NƏZƏRİ ASPEKTLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi. Son dövrlərdə milli sərvətin qiymətləndirilməsinin genişləndirilmiş konsepsiyasına əsasən MS-nin tərkibinə hər bir ölkənin sərvətinin formalaşmasında böyük rol oynayan insan kapitalının da daxil olduğu qeyri-maddi aktivləri aid etməyə başladılar. Ölkənin milli sərvətinin artırılması istiqamətində mövcud insan kapitalı imkanlarından, potensialından maksimum istifadənin təşkili, buna hərtərəfli şəraitin yaradılması, dəstək tədbirlərinin, həcminin onun artırılması məqsədli hesab edilməlidir. Bu mənada milli sərvətin yaradılması və artırılmasinda insan kapitalının böyük əhəmiyyətini nəzərə alaraq, qeyri-maddi aktiv kimi onun rolunn araşdırılmasını aktual hesab etmək olar.

Tədqiqatın metodu kimi bir sıra elmi metodlardan təhlil, müqayisə, statistik, iqtisadi umumiləşdirmələrdən istifadə edilmişdir.

Tədqiqatın nəticələri müasir dövrdə ölkələrin innovasiyalı və rəqabətli inkişafında, xüsusilə milli sərvətin yaradilması və artırılmasında insan kapitalının rolunun araşdırılması ilə bağlı faydalı ola bilər.

**Acar sözlər:** milli sərvət, insan kapitalı, qeyri-maddi aktiv, konsepsiya, iqtisadi artım, resurs.

**UOT:** 330
**JEL:** EO1; P46
**DOİ:** 10.54414/YNTH2265

## Giriş

Milli sırvət (MS) cəmiyyət tərəfindən toplanan, ictimai istehsal nəticəsində daim yenilənən, artan bütün maddi, təbii, qeyri-maddi və maliyyə dəyərlərinin məcmusudur. Təbii resurslar (TR) istehsal məhsulu olmadığı üçün və təbii şəkildə mövcudluğuna görə, bu resursları sərvətə daxil etməyərək, uzun müddət MS-i maddi dəyərlərin istehsalı ilə bağlı izah etmişlər. Daha sonralar TR-nin ixracı bir çox ölkələrin dövlət büdcəsinin gəlirlərinin formalaşmasında böyük rolu olduğu üçün onları da MS-nin tərkibinə daxil etməyə başladılar. Nəhayət, keçən əsrin sonlarından və son dövrlərdə MS-nin qiymətləndirilməsinin genişləndirilmiş konsepsiyası meydana gəlməyə başladı. Daha doğrusu, bu konsepsiyaya əsasən MS-nin tərkibinə hər bir ölkənin sərvətinin formalaşmasında böyük rol oynayan insan kapitalının (İK) da daxil olduğu qeyri-maddi aktivləri aid etməyə başladılar. MS-nin təkcə maddi sərvətlərin məcmusu kimi dəyərləndirilməsi yanaşması müasir iqtisadi nəzəriyyənin tələblərini əks etdirmir və ölkələrə səmərəli iqtisadi siyasəti həyata keçirməyə imkan vermir [1, s.3].

İnstitusional-sosial kapitalla yanaşı, İK-nın MS-nin tərkibinə daxil edilməsinə əsaslanan MS-nin qiymətləndirilməsinin genişləndirilmiş konsepsiyası müasir dövrün intensiv, innovasiyalı yeni texnologiyalara əsaslanan davamlı iqtisadi inkişafının nəticəsi olaraq yaranmışdır. İK dünyanın bütün ölkə və regionlarında MS-nin yaradılması və artırılmasının əsas faktoru kimi çıxış edir. Buna baxmayaraq İK deyil, TR aşağı gəlirli ölkələrin, o cümlədən Azərbaycanın MS-nin və rifahının ən böyük həcmə malik tərkib hissəsidir. 2014-cü ildə dünya üzrə ümumi rifahın tərkibində TR-nin xüsusi çəkisi 47% təşkil etmişdir [2]. Bu göstərici ölkələrin tədricən orta və yüksək gəlirli ölkələr sırasına daxil olması ilə azalır. Əksinə, İK-nın milli rifah və sərvətdə

payı getdikcə artaraq, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan yüksək gəlirli ölkələrdə isə bu göstərici 70-85% arasında, bəzi ölkələrdə daha da artıq olmaqla dəyişir. Qeyd etmək lazımdır ki, İK-nın MS-də belə yüksək səviyyəsi həm maddi, həm də İK-nın özünün artırılması hesabına əldə olunmuşdur. 1995-2014-cü illərdə bir çox ölkələr daxil olmaqla, dünya sərvətinin səviyyəsi 66% qalxmışdır. Bu dövrlərdə əksər ölkələr adambaşına düşən gəlirlərini daha da artıra bilmişdir. Belə ki, ən yüksək artım orta gəlirli ölkələrdə baş vermişdir. Asiya ölkələrinin fenomenal yüksək iqtisadi artımının səbəbindən bu ölkələr yüksək gəlirli ölkələrin səviyyəsinə yaxınlaşmışdırlar. Bu yaxınlaşma xüsusilə, təhsil səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş iri həcmli investisiyalar hesabına İK-nın daha çox artımı ilə əlaqədar olmuşdur. Beləliklə, İK-nın yüksək əlavə gəlir yarada bilən xüsusi rəqabət qabiliyyətli məhsulun yaradılması hesabına milli iqtisadiyyatın formalaşması və inkişafı, uyğun olaraq da MS-nin yaradılması və artırılması proseslərində böyük rolu və əhəmiyyətli vardır. Bu səbəbdən də MS-nin artırılması və ölkənin uzun müddətli sosial iqtisadi inkişaf strategiyasının işlənməsində və reallaşdırılmasında İK-nın istifadəsi müasir dövrdə ən perspektivli və vacib vəzifələrdəndir. Xalqın, millətin potensialından səmərəli istifadə və onun inkişaf etdirilməsi məhz MS-nin yaradılması və artım proseslərində İK-nın inkişafı ilə bağlıdır. DB tərəfindən həyata keçirilən hesablamalarda yüksək gəlirli ölkələrdə MS ilə onun tərkib hissələrinin nisbəti aşağıdakı kimi olmuşdur. Belə ki, insan (sosial) kapitalının payı yüksək olmaqla bütün MS-nin 80%-ni, eyni zamanda ümumi sərvətin 17%-ni istehsal kapitalı, cəmi 2%-ni isə TR təşkil etmişdir. Bununla bərabər nisbətən daha az inkişaf etmiş və varlı olmayan ölkələrdə bu nisbət kəskin dəyişərək MS-də TR-nin payı daha yüksək və əksinə İK-nın isə xüsusi çəkisi daha az olmuşdur (cədvəl 1).

XXI əsrin əvvəllərinə bəzi inkişaf etmiş ölkələrin, həmçinin Rusiyanın MS-nin tərkibində İK-nın payındakı fərqliliklər daha qabarıq özünü göstərir (Cədvəl 2). Cədvəlin məlumatlarından göründüyü kimi, ABŞ-ın MS-də İK-nın payı 82% olsa da, TR-nin payı cəmi 3% olmuşdur. Dünya üzrə bu dövrdə ən yüksək İK və sosial kapitalın payı 85% Almaniyada müşahidə olunmuşdur. DB-nin 11 ildən sonra, yəni 2011-ci ildə nəşr etdirdiyi hesabatda 152 ölkənin göstəricilərinin nəticələri əks olunmuşdur. Belə ki, 2005-ci ildə dünyanın ümumi sərvətində 5% - TR, 18% - istehsal kapitalının və 77%- isə İK-nın da daxil olduğu qeyri-maddi aktivlərin payı olmuşdur. 2000-ci ildən 2005-ci ilə qədər göstəricilər demək olar ki, dəyişməmişdir (bax: cədvəl 1). Bu göstəricilərdən belə nəticəyə gəlmək olar ki, istənilən dövlətin dayanıqlı inkişafını onun MS-nin əhəmiyyətli hissəsini təşkil edən İK-nın təkrar istehsalı, yığılması və artırılması təşkil edir [4].

**Cədvəl 1**

**2000-ci ildə dünya ölkələrinin milli sərvətinin tərkibi (insan və sosial kapital daxil olmaqla)**

| Gəlir səviyyəsinə görə ölkələr | Təbii resursların payı, %-lə | İstehsal kapitalının payı, %-lə | Sosial və insan kapitalının payı, %-lə |
|---|---|---|---|
| İƏ və İT üzvi olan ölkələr | 2 | 17 | 80 |
| Orta gəlir səviyyəli ölkələr | 13 | 19 | 68 |
| Aşağı gəlir səviyyəli ölkələr | 26 | 16 | 59 |
| Bütün dünya | 4 | 18 | 78 |

**Mənbə:** [3].

Beləliklə, dünya ölkələrinin iqtisadi inkişafının təhlili göstərir ki, onların sərvətlərində böyük üstünlüyü qeyri-maddi aktivlər – insan resursları və dövlət, qeyri-dövlət strukturlarının keyfiyyəti təşkil edir. Baxmayaraq ki, məcmu sərvətdə istehsal aktivlərinin payı bütün gəlir qrupları üzrə dəyişməz qalsa da, ancaq orta gəlirli ölkələrdə məhsulun kapital tutumu daha yüksəkdir. Ölkələrin gəlirləri artdıqca, TR-nin adətən sərvətdə payı getdikcə azalır və İK-nın

daxil olduğu qeyri-maddi aktivlərin xüsusi çəkisi isə əksinə artır.

**Cədvəl 2**

**2000-ci ildə bəzi dünya ölkələrinin milli sərvətinin strukturu**

| Ölkələr | Təbii resursların payı, %-lə | İstehsal kapitalının payı, %-lə | Sosial və insan kapitalının payı, %-lə |
|---|---|---|---|
| ABŞ | 3 | 16 | 82 |
| Yaponiya | 0 | 30 | 69 |
| Norveç | 12 | 25 | 63 |
| Almaniya | 1 | 14 | 63 |
| Rusiya | 44 | 40 | 16 |

**Mənbə:** [3, s. 20,29].

Dünyanın inkişaf etmiş varlı ölkələri başlıca olaraq öz əhalisinin yüksək ixtisas səviyyəsinə, bilgilərinə və peşəkar vərdişlərinə, həmçinin iqtisadi fəaliyyəti təmin edən strukturların keyfiyyətinə görə varlıdırlar. Deməli, varlı ölkələrin sərvətlərinin əsas hissəsi qeyri-maddi aktivlərdən gələn gəlirlərlə bağlıdır. Bu qeyri-maddi aktivlər ölkənin aktiv işçi qüvvəsində reallaşdırılmış nou-hou və digər vərdişlərdir. Bu aktivlər həmçinin özündə sosial kapitalı, daha doğrusu, hakimiyyət institutlarına etibar, insanlar arasında və cəmiyyətdə səbrlilik və əməkdaşlıq, onların ümumi məqsədlərinin əldə edilməsi üçün birlikdə işləmə qabiliyyəti və s. özündə cəmləşdirir. Bundan başqa, bu növ sərvətlər həmçinin, əmək məhsuldarlığını artıran bütün idarəetmə elementlərini də özündə birləşdirir. Belə ki, əgər nümunə üçün ölkədə mülkiyyət hüququnu qoruyan və səmərəli idarəetmə sisteminə bağlı olan məhkəmə strukturları fəaliyyət göstərərsə, nəticədə bu da öz növbəsində uyğun olaraq İK, qeyri-maddi aktivlərdən gələn gəlirləri də artırır. İnkişaf etmiş ölkələrdə qanunvericilik və insan resursları ictimai sərvətdə ən yüksək gəlirlərin payını təşkil edir. İK ilə bağlı MS-nin artırılması strategiyasında təhsilə investisiyalar, məhkəmə sisteminin fəaliyyətinin və xaricdən bilik və investisiyaların, yeni texnologiyaları cəlb edilməsi siyasətinin mövcudluğu da məcmu sərvətin qeyri-maddi aktivlərinin artırılmasının vacib vasitəsidir.

Qeyd etmək lazımdır ki, İK-ya həsr olunan elmi tədqiqatlarda sinonim anlayışlar kimi çox qarışıq, mahiyyətcə fəqli olan izahlara, yanaşmalara rast gəlinir. Belə ki, bir çox tədqiqatçılar sosial kapitalı İK-nın tərkib hissəsi kimi qeyd edirlər. Bu anlayışlar qarşılıqlı əlaqədə olsalar da, MS-də sosial kapitalın institusional-sosial kapitalın tərkibində ayrıca verilməsi məqsədlidir. İnstitusional-sosial kapitalın tərkibinə mənəvi-ictimai, sosial, infrastruktur, institusional, informasiya, kommunikasiya və s. dəyərlərin daxil edilməsi onu İK-dan xeyli fərqləndirir. Hətta, intellektual kapital da İK ilə çox sıx əlaqəli olsa da, onun da ayrıca MS-nin tərkib hissəsi kimi qeyd edilməsi məqsədlidir. Ölkədə MS-nin yaradılması, artırılması, nəticədə davamlı inkişafın təmini, əhalinin həyat yaşayış səviyyəsinin və keyfiyyətinin yüksəldilməsinin əsasını təşkil edən İK-nın inkişafı təhsil sisteminin inkişafı, intellektual innovasiya və sahibkarlıq fəaliyyətinin aktivləşdirilməsilə sıx bağlı olmaqla, dünya birliyinin inkişafının yeni mərhələsilə birbaşa bağlıdır. Bununla əlaqədar XXI əsr beynəlxalq təşkilatlar tərəfindən keyfiyyət əsri elan edilmişdir. İqtisadiyyatın inkişafının xarakterik xüsusiyyəti olan yüksək keyfiyyətli məhsul və xidmətlərin buraxılışı, birbaşa İK, onun nəticəsi olan əməyin səmərəlilik göstəricisinin yüksək olması ilə bağlı olmaqla, öz növbəsində MS-nin yaradılması və artırılması strategiyasının əsas mənbəyi kimi çıxış edir.

Müasir dövr elmin, yüksək texnologiyaların və texnikanın, İKT-lərin, innovativ və rəqabətli iqtisadiyyatın sürətli inkişafı, nəticədə intellektual potensialların durmadan artan dəyərlərilə xarakterizə olunmaqdadır. Bütün bunlar isə öz növbəsində hər bir ölkənin MS-nin və iqtisadi artımının əsas mənbəyi olmaqla, onun dünya iqtisadiyyatında üstün rəqabətli inkişafını və yerini müəyyən edir. Qeyd edilən intellektual dəyərlərin yaradıcısı isə birbaşa hər bir ölkənin insan resurslarının aparıcı səmərəli və faydalı hissəsini təşkil edən kreativ insan və ona yönəldilən investisiyalar, geniş mənada İK-dır. Deməli, bu mövqedən yanaşsaq, kreativ və

səmərəli intellektual insan potensialı və İK-nı müasir dövrün və gələcək inkişafın, o cümlədən hər bir ölkənin MS-nin və iqtisadi artımının əsas strateji resursu kimi dəyərləndirmək olar. Ta qədim zamanlardan, iqtisadi fikirlərin meydana gəldiyi dövrlərdən biri mütəfəkkirləri, iqtisadçıları sərvətin, iqtisadi artımın hərəkətverici qüvvəsinin nə olduğu məsələsi daim düşündürmüşdür. A.Smit iqtisadi artını əməyin bölünməsilə əlaqələndirirdi. T.Maltus hər bir ölkənin sabit şəkildə gəlir əldə edə biləcək kapitala bağlı səylərini izah edə bilən iqtisadi artım proseslərinin formal modelini işlədi. İqtisadi artımın Keyns modeli investisiyalara həlledici əhəmiyyət verdi, milli gəlirin artımının kapital yığımından asılı olduğunu qeyd etdi və bunda da dövlətin böyük rolu olduğu fikrini irəli sürdü. Neoklassik model milli gəlirin, uyğun olaraq, MS-nin artımını əmək, kapital və torpaq kimi əsas iqtisadi amillərdən asılı olduğunu müəyyən etmişdi. Əlbəttə, bu model müasir dövrün tələblərinə uyğun olsa da, onun bu amillərdən daha çox hansından asılılığı vurğulanmamışdır. R. Solounun fikirlərindən sonra neoklassik model iqtisadi artımı texniki inkişaf ilə əlaqələndirdi. İK ilə bağlı iqtisadi yanaşma və nəzəriyyələri ətraflı araşdırmadan, qeyri-maddi aktiv kimi onun MS-də böyük əhəmiyyət kəsb etməsi səbəbindən İK anlayşının yaranması, mahiyyəti xüsusiyyətləri, dəyərləndirilməsi və s. vacib məsələlərə diqqət verilməsini məqsədli hesab etmək olar. İK ilə əlaqədar iqtisadi elmlərdə ilkin fikirlər ingilis klassik siyasi iqtisadçıların işlərində öz əsasını qoymuşdur. Hələ XVII əsrdə U.Petti insanın məhsuldarlıq xüsusiyyətini dəyərləndirməyə cəhd etmişdir. Onun fikrinə görə, əksər insanların dəyəri onun yaratdığı illik dəyərin 20 dəfəsinə bərabərdir [5, s.182]. U.Petti ilk dəfə olaraq insanın faydalı xüsusiyyətini kapital kimi pul formasında dəyərləndirmişdir. U.Petti insan faktorunun MS-nin yaradılmasında zəruriliyini hələ 1676-cı ildə yazdığı "Siyasi cəbr" işində xatırlamışdır [6, s.311-312]. Tarixi baxımından daha sonra sərvətin yaradılması nöqteyi-nəzərincə istehsalda insan faktoru haqqında ilk xatırlama XVIII əsrdə A.Smitin "Xalqların sərvətlərinin təbiəti və sərvətlər haqqında tədqiqatlar" [7, s.3] əsərində rast gəlinir və bu istiqamətdə onun fəaliyyəti insanın əməyilə sərvət olaraq böyük dəyər yaratması fikrilə irəli sürülmüşdür. Məhz o dövrdə insan qabiliyyətinin keyfiyyət və miqdar göstəriciləri gəlirlərin və sərvətin yaradılmasının vacib mənbəyi və əməyin səmərəliliyinin vacib amili kimi çıxış etdiyi qeyd edilmişdir. Siyasi iqtisadın digər klassik nümayəndələri də (C.S.Mill, D.Rikardo və b.) iqtisadiyyatın səmərəliliyinə insan faktorunun keyfiyyətinin böyük təsir etdiyini tədqiq etmişlər.

İK nəzəriyyəsinin yaranmasının əsas səbəbi İEOÖ-lərin iqtisadi artımın klassik amillərə əsaslanan göstəriciləri ötüb keçən inkişafları haqqındakı statistik məlumatlarla bağlı olmuşdur. Bu nəzəriyyə ilkin olaraq fərdi İK-dan başlanmışdır. Müasir dövrdə isə, ölkələr milli İK-nın əhəmiyyətindən daha çox danışırlar, çünki bu cür yanaşma məhz hər bir ölkənin MS-nın strateji bazasının İK ilə əlaqədar olmasındadır. Milli İK-nın toplanmasını C.Kuznes bütün inkişaf amillərinin arasında ilkin səviyyə hesab etmişdir. O, milli İK olmadan iqtisadiyyatın növbəti-yeni yüksək mərhələsinə keçidin qeyri-mümkünlüyünü qeyd etmişdir [8]. İK MS-nin əsas tərkib hissəsi olmaqla, ayrıca götürülmuş bir ölkənin sosial-iqtisadi və davamlı inkişaf səviyyəsini, eyni zamanda beynəlxalq reytinqini müəyyən etdiyindən, İK-nı MS-nin tərkibində milli İK kimi də xarakterizə edirlər [9, s.212]. Milli İK əslində sosial, siyasi kapitalı, milli intellektual prioritetləri, milli rəqabət üstünlükləri və millətin insan potensialını əks etdirir.

İK nəzəriyyəsinin əsaslarının yaranması qədim dövrlərə gedib çıxsa da, bu nəzəriyyə XX əsrin 50-60-cı illərindən formalaşmağa başlamışdır. Bu dövrlərdən sonra İK nəzəriyyəsinin əsaslarını qoyan amerika alimləri Teodor Şuls 1979-cu ildə İEOÖ-lərin problemlərinin iqtisadi inkişafının tədqiqinə görə [10] və daha sonra 1992-ci ildə Henri Bekker insan davranışlarının mikroiqtisadi təhlilindəki tədqiqatlarına görə Nobel mükafatı almışlar [11]. T.Şulsun İK-nın formalaşması ilə bağlı verdiyi töhvə əsasən təhsillə əlaqədar olmuşdur. Belə ki, T.Şulsa görə təhsil-iqtisadi artımı (deməli, nəticədə MS-i: müəllif fikri) təmin edən əsas faktordur və o, İK-nın yaradılması prosesi və nəticəsidir. İşçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması təhsilə əlavə vəsaitlərin qoyulmasının qanunauyğun nəticəsidir. T.Şuls İK-nı başlanğıc mərhələdə tədqiq edərək bu kapital növünü sənaye və

postsənaye iqtisadiyyatının əsas məhsuldar amili adlandırmışdır.

Daha sonra amerika iqtisadçısı E.Denis İK ilə bağlı iqtisadi artım amillərinin təsnifatını işləyib hazırladı. Bu amillərin sayı 23 olmaqla, onlardan 4 - əməyi, 4 – kapitalı, 1-torpağı, 14 isə ETT-yə qoyuluşları xarakterizə etmişdir [8]. E.Denis bu faktorlar içərisində keyfiyyətinə görə işçi qüvvəsinin keyfiyyətinin və əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə təhsilin səviyyəsindən asılı olduğu fikrini irəli sürmüşdür. Rus alimlərindən M.V.Qreçko və İ.V.Qonçarovun fikrinə görə : İK – investisiya əsasında formalaşan peşəkar ehtiyatlardır. Bu ehtiyatların da öz növbəsində reallaşdırılması insanın həyat fəaliyyətinin həm istehsal və həm də qeyri-istehsal sferalarında, həm iqtisadi və həm də qeyri-iqtisadi gəlirlərin alınmasına gətirib çıxarır [12 s.243]. İK bütün İEÖ-lərdə iqtisadi artımın hərəkətverici qüvvəsi və MS-nin əsas tərkib hissəsi kimi qəbul edilir [13, s.4]. Bu faktı həmin ölkələrin MS-nin 75-85%-nin İK təşkil etməsi bir daha sübut edir. İK nəzəriyyəsinin sonrakı inkişafı ilə qərb iqtisadçılarından C.Minser, F.Maxlup, U.Boyen, C.Biddl, F.Bekon, R.Dekardo, C.Makkuloxa, N.Sehiopa, C.Kenrdix, R.Solou və b., rus iqtisadçılarından V.İ.Marsinkeviç, V.S.Qoylo, R.İ.Kapelyuşnikov, A.İ.Dobrının, S.A.Dyatlov, M.M.Kritskiy, S.A. Kurqanskiy, Z.Bjezinsk, A.S.Borodin, T.V.Smirnov, M.Kovaçeviş, A.A.Çernova və b. məşğul olmuşlar. MS-nin qeyri-maddi aktivləri daxil olmaqla qiymətləndirilməsilə məşğul olan xarici ölkə alimlərindən: R.Barro, K.Hamilton, R.Dasqupt, D.Kayfman, A.Krey, P.Maupo, M.Macmpyusi, M.Paldam, Putnem, D.Rut və b. qeyd etmək olar. Zaman keçdikcə, İK anlayışı genişlənərək həqiqi mənada iqtisadiyyatın bu kapital növü müasir iqtisadiyyatın determinatoru kimi böyük rol oynayır. DB İK-nın izahına xərclər nöqteyi-nəzərindən yanaşaraq qeyd etmişdir ki, İK – özündə ailənin qidalanmaya, yaşayış yerinə, təhsilə, sağlamlığa, mədəniyyət, həmçinin dövlətin bu məqsədlər üçün sərf etdiyi xərcləri özündə birləşdirir. Bütün bunlarla bağlı qeyd etmək lazımdır ki, XX əsrin ikinci yarısından İK anlayışının yaranmağa başlanmasından keçən dövrlərdən bəri, xüsusilə XXI əsrin əvvəllərindən bu problemi çoxlu sayda alimlər izah etməyə çalışmışlar. Məhz, bu səbəbdən də İK anlayışının izahına çox müxtəlif yanaşmalar meydana gəlmişdir. Bununla bağlı bəzi mütəfəkkir və alimlərin fikirlərinə nəzər salaq: H.Bekkerə görə İK - əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin və bununla da verilən insanın əmək haqqının artımına təsir edən ictimai istehsalın bu və ya digər sferasında məqsədli şəkildə istifadə oluna bilən, investisiya nəticəsində formalsşan və insan tərəfindən toplanan müəyyən sağlamlıq, biliklər, vərdişlər, qabiliyyətlər və motivasiyalar ehtiyatıdır [11,s.39]. Bütün yuxarıda qeyd edilənləri ümumiləşdirərək, fikrimizcə İK anlayışının müasir dövrün tələblərinə uyğun, dolğun, tam və kompleks izahını aşağıdakı kimi təqdim etmək olar:

**İnsan kapitalı** – insanın şəxsi, ümumi sosial-iqtisadi nemətlər və rifah, sərvət yaratmağa yönəldilmiş, sağlamlığa, təhsil və peşəkar hazırlığa inviestisiyalar və iş təcrübəsi nəticəsində qazanılmış sağlamlıq, biliklər, qabiliyyət və bacarıqlar, motivasiyalar, kompentensiyalar, yüksək texnologiyaları, yeni informasiyaları mənimsəmə, həmçinin anadangəlmə və s. potensial ehtiyatlarının məcmusudur.

Müasir dünyada, o cümlədən konkret bir ölkənin sosial-iqtisadi inkişafı, onun dünya iqtisadiyyatında konkret üstünlük əldə etməsi milli iqtisadi artımın və MS-nin keyfiyyət parametrlərinin və ümumiyyətlə innovativ, yüksək texnologiyalı iqtisadiyyatın formalaşmasında İK çox böyük və əvəzsiz rol oynayır. Bununla əlaqədar, inamla qeyd etmək olar ki, hal-hazırda dünya ölkələrinin iqtisadiyyatının səmərəliliyi və intensivliyi hər bir ölkənin vacib strateji resursu kimi qiymətləndirilən İK-nın vəziyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Bu mənada İK nəinki müasir cəmiyyətin iqtisadi inkişafının hərəkətverici qüvvəsi, o cümlədən o, müasir iqtisadiyyatın və elmi baza bilikləri, innovasiyalar iqtisadiyyatının, yüksək texnoloji proseslərin, ən yeni qlobal informasiya-kommunikasiya sistemlərinin əsasının yaradılması rolunda çıxış edir. Beləliklə, cəmiyyətin, o cümlədən ölkənin müasir inkişafı, perspektivləri, davamlı inkişafı, uyğun olaraq bu inkişafları təmin edən MS-nin yaradılması, artırılması strategiyası birbaşa insan potensialı, insan resursları və nəhayət bu inkişafı yaradan, biliklərin daşıyıcısı olan insan kapitalıdır

**Nəticə**

Ölkənin MS-nin artırılması istiqamətində mövcud İK imkanlarından, potensialından maksimum istifadənin təşkili, buna hərtərəfli şəraitin yaradılması, dəstək tədbirlərinin həcminin artırılması məqsədli hesab edilməlidir. MS nöqteyi-nəzərincə İK, insan potensialı, onun formalaşması, qiymətləndirilməsi, artırılması yolları öz aktuallığını hələ uzun illər saxlayacaq, çünki məhz müasir dövrdə əksər ölkələrin MS-nin yaradılmasının əsas hissəsini, İEÖ-lər üçün isə 70-90%-ni İK təşkil edir. Deməli, İK-nın formalaşması, qiymətləndirilməsi, onun artırılması yolları, xüsusən postsənaye ölkələrində, o cümlədən Azərbaycanda MS-nin yaradılmasının əsas amili olmaqda qalır və eyni zamanda bu amil milli iqtisadiyyatın rəqabətli və innovasiyalı inkişafının bazası rolunu oynayır. Beləliklə, İK-nın inkişafı, xüsusilə Azərbaycanın MS-nin formalaşmasının əsas hissəsini təşkil edən təbii resurs – xammal yönümlü iqtisadiyyatı üçün çox vacibdir. Çünki, həm müasir və həm də gələcəyin iqtisadiyyatı biliklər, innovasiyalar, intellektual iqtisadiyyatdır. Bu səbəblərdən də Azərbaycanda İK-nin yaradılması və inkişafı həm MS-nin və həm də ölkənin sosial-iqtisadi inkişaf strategiyasının formalaşması nöqteyi-nəzərindən çox əhəmiyyətlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Карпова, Г.В. Теория методология моделирования оценки не материальной составляющей национального богатства: / Автореферат диссертации на соискание ученой степени доктора экономических наук. / -Санкт Петербург, 2010. - 35 с.

2. Группа Всемирного Банка. Республика Беларусь. Особое внимание: накопление национального богатства, 2018. thdocs.worldbank.org/en/doc.

3. Where is the Wealth of Nations? Measuring the capital for the 21$^{st}$ Century / [электронный ресурс] // Официальный сайт Всемирного банка - Washingtion; World Bank. 2006, - p.208. https://siteresources.worldbank.org/INTEEI/214578-111088625964/20748034/ All.pdf; P.XIV.-http: // iariw.org / papers / 2000 /

4. The changing Wealth of Nations: Measuring Sustainable Development in the New Millennium // Washingtion; - World Bank, - 2011, - 221p. URL: https: // siteresources. Worldbank. org / ENVIRONMENT / Resources / Changing Wealth Nations. pdf DOI: 10.1596/978-0-8213-8488-6

5. Синицкая, Н.Я. Развитие теории человеческого капитала: научный обзор // - Архангельск: - Scientific Review – Научные обозрение экономические науки. Economic sciences, - № 2, - 2016, с.182 -190.

6. . Schultz, T. Human Capital in the International Encyclopedia of the Social Sciences / - N.Y., - 1968, vol 6.

7. Смит, А. Исследование о природе и причинах богатства народов/ Антология экономической классики в 2-х томах, Т1, - Моква: М.П. «Эконов», 1993,-208с.

8. . Корчагин, Ю.А. Человеческий капитал и инновационная экономика / Ю.А.Корчагин. - Воронеж: - 2012. - 144s.

9. Умеров, Э.А. об оценке величины человеческого капитала в национальном богатства России // - Крым: Ученые запсики Крымского инженерно-педагогического университета, - №2(72), - 2021, с. 211-217.

10. . Schultz, T.P. Education Investments and Returns // Handbook of Development Economics / H.Chenery, T.N.Srinivasan (eds).-Vol. 1. – Amsterdam: Elsevier Science Publishers. B.V.1988

11. Беккер, Г. Человеческое поведение: Экономический подход. Избранные труды по экономической теории: / - Москва: ГУВШЭ, 2003, - 672 с.

12. Гречко, М.В., Гончаров, И.В. Человеческий капитал, человеческие ресурсы, интеллектуальный капитал: взаимосвязь и различие категорий // Экономика и предпринимательство. - 2016, - №2-2(67-2). с. 243.

13. Громова, Н.В. Человеческий капитал как фактор социально-экономического развития России // - Вестник Волжского унивеситета имени В.Н.Татицева,- №1, том 2,- 2019. - с.1-10.

**Шафига Сафар кызы МАМЕДОВА**
Доцент кафедры мировой экономики и маркетинга
Сумгаитского Государственного Университета

**ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ РОЛИ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В СОЗДАНИИ НАЦИОНАЛЬНОГО БОГАТСТВА**

**Резюме**

Цель исследования. В последнее время на основе расширенной концепции оценки национального богатства в МС стали включать нематериальные активы, в том числе человеческий капитал, которые играют важную роль в формировании богатства каждой страны. В целях увеличения национального богатства страны следует рассматривать как цель организовать максимальное использование имеющихся возможностей и потенциала человеческого капитала, создать для этого всесторонние условия, увеличить объемы мер поддержки. В этом смысле, учитывая большое значение человеческого капитала в создании и приумножении национального богатства, можно считать актуальным исследование его роли как нематериального актива.

Методы исследования В качестве методов исследования использовался ряд научных методов, таких как анализ, мегасравнение, статистические, экономические обобщения.

Результаты исследования – могут быть полезны в современное время в инновационном и конкурентном развитии стран, особенно в части исследования роли человеческого капитала в создании и приумножении национального богатства.

**Ключевые слова:** национальное богатство, человеческий капитал, нематериальный актив, концепция, экономический рост, ресурс.

**Shafiga Safar MAMMADOVA**
Associate Professor, Department
of World Economy and Marketing,
Sumgait State University

**THEORETICAL ASPECTS OF THE ROLE OF HUMAN CAPITAL IN CREATING NATIONAL WEALTH**

**Summary**

**The purpose of the research**. Recently, based on an expanded concept of assessing national wealth, MS began to include intangible assets, including human capital, which play an important role in the formation of the wealth of each country. In order to increase the national wealth of the country, the goal should be to organize the maximum use of existing opportunities and potential of human capital, create comprehensive conditions for this, and increase the volume of support measures. In this sense, given the great importance of human capital in the creation and enhancement of national wealth, the study of its role as an intangible asset can be considered relevant.

Research methods A number of scientific methods were used as research methods, such as analysis, mega-comparison, statistical, economic generalizations.

The results of the research can be useful in modern times in the innovative and competitive development of countries, especially in terms of studying the role of human capital in the creation and increase of national wealth.

**Key words:** national wealth, human capital, intangible asset, concept, economic growth, resource.

**Daxil olub:** 19.08.2023